Xalq qəzeti.- 2025.- 3 sentyabr (№186).- S.12.

# Gəncə: Geri sayım başladı!

## *MDB Oyunlarına 4 həftə qaldı*






**Sentyabrın ilk günündə Gəncə həm simvolik, həm də tarixi bir hadisəyə şahidlik etdi. III MDB Oyunlarının rəsmi “Geri sayım” mərasimi minlərlə şəhər sakininin ürəyində qürur, həyəcan və sevinc oyatdı, Gəncənin, Azərbaycanın regionlarının dünya miqyasında yeni bir səhifə açmasından xəbər verdi...**

Tədbirdə Azərbaycan Respublikasının gənclər və idman naziri, Oyunların Təşkilat Komitəsinin sədr müavini Fərid Qayıbov, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev və digər rəsmi şəxslər iştirak etdilər.





Adil Tağıyev çıxış edərək bildirdi ki, MDB Oyunlarına hazırlıq çərçivəsində Gəncə şəhəri tamamilə yenilənir. Şəhər stadionu yenidən qurulur, Qafqazın ən böyük idman sarayı inşa edilib. Bu təkcə idman üçün deyil, bütövlükdə şəhərin gələcəyi üçün böyük addımdır.

“Belə mötəbər tədbirin Gəncədə keçirilməsi şəhərimizin tarixinə qızıl hərflərlə yazılacaq,” – deyə Tağıyev vurğuladı.

Nazir Fərid Qayıbov isə çıxışında Gəncə sakinlərini oyunlar zamanı idmançılara güclü dəstək göstərməyə çağırdı: “Artıq geri sayım başlayıb. Bir aydan az vaxt qalıb. Bu oyunlar ilk dəfə regionlarda keçiriləcək və Gəncə bu böyük ailənin ürəyi olacaq”, – deyə, nazir qeyd etdi.

Rəsmi hissədən sonra mərasimin emosional zirvəsi yaşandı: III MDB Oyunlarının rəsmi maskotları – Bəbir və Leyla ictimaiyyətə təqdim olundu. Enerjili, mehriban və simvolik bu maskotlar oyunlara xüsusi rəng qatacaq.

Geri sayım saatı işə salındı və bu saat hər saniyə bizi böyük günə – 28 sentyabra yaxınlaşdırır.

Gecə məşhur ifaçılar Emiliya Yaqubova və Çingiz Mustafayevin iştirakı ilə keçirilən konsert proqramı ilə yadda qaldı. Səhnədən yüksələn hər bir mahnı, alqış sədaları, rəqs edən gənclər bir daha göstərdiki, bu oyunlar təkcə idman yarışı deyil, birliyin, dostluğun və gələcəyə inamın təntənəsidir.

Xatırladaq ki, III MDB Oyunları 28 sentyabr – 8 oktyabr 2025-ci il tarixlərində Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndi şəhərlərində keçiriləcək. Açılış və bağlanış mərasimləri Gəncə Şəhər Stadionunda baş tutacaq.

Azərbaycan artıq neçə-neçə beynəlxalq tədbirə ev sahibliyi edib. Lakin bu dəfə məsələ fərqlidir. Bu dəfə regionlar danışacaq, regionlar parlayacaq!

İndi hər birimizin vəzifəsi budur: meydanda idmançılar mübarizə aparacaq, tribunada isə biz. İnanırıq ki, Gəncə sakinləri və bütün azərbaycanlılar dəstəyimizlə tarix yazacaq.

Hazır olun, geri sayım artıq başlayıb!

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə**